95
G 85

# GÖYƏRÇİN

İSSN-0207-4710



MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 2188 qr.



# GƏZƏN BALQABAQ TAĞI

*(Kuba nağılı)*

Bir kişi kəndbəkənd gəzir, adamlara nağıllar danışır, göy-göyərti, yumurta satıb başını dolandırırdı.

Bir dəfə həmin adam uzaq səfərdən evə qayıtdı. Yəhəri götürəndə gördü ki, atın beli yara olub. Həmin kişinin atçılıqdan az-çox başı çıxırdı. Xəstə heyvanları müalicə etməkdə ad çıxarmışdı. Atın sahibi ocaq yerindən bir ovuc kül qarışıq torpaq götürüb yaranın üstünə basdı. Sonra atın başından cilovu çıxarıb onu çəmənliyə ötürdü. Dedi ki, qoy gedib otlasın, dincəlsin. Vaxt və qoyduğu məlhəm onun yarasını sağaldacaq.

İki həftədən sonra Bakalyao (kişinin adı belə idi) kövşənə getdi ki, atı gətirsin. Çünki o istəyirdi ki, yaxın şəhərə gedib toyuq-cücə üçün dən alsın və ata yükləyib evə gətirsin. Ancaq kişinin arzuları gözündə qaldı. Nə qədər axtardısa öz sevimli atını tapa bilmədi. O, kor-peşman evə qayıtmalı oldu. Yolda isə bərk yağışa düşdü. Təpədən-dırnağacan islandı, palçıq içində evə qayıtdı.

Əli hər yerdən üzülən kəndli düşündü ki, ona cıdırlarda qələbə qazandıran, kənd adamlarının yanında başını həmişə uca eləyən sevimli atını bir daha görməyəcək.

Bir dəfə o, çəmənə gəzməyə gedəndə gözlərinə inanmadı. Gördü ki, üstündə boranı tağları bitən kiçik bir bostan parçası ona sarı gəlir.

Kişi qorxudan nə edəcəyini bilmədi. Ancaq maraq ona güc gəldi. Ehtiyatla yaxınlaşdı ki, görsün bu nədir.

Bir az da yaxına gedəndə kişi bərk təəccübləndi. Bu, bostan yox, belində boranı bitən sevimli atı idi. Sən demə, atın yarasının üstünə qoyulan məlhəmin içində boranı tumu var imiş. Sən demə, boranı tumları xarab olmasın deyə onları külün içində basdırmaq kubalıların adəti imiş.

Yaraya basılan külün içərisindəki boranı tumu yağışın altında qalıb, sonra atın belindəcə cücəribmiş.

*Tərcümə edib işləyəni R.Y.Əliyev*

